# ANBARDAR VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

**1. Azərbaycan Respublikasının ərazisində tətbiq olunan ölçü vahidləri haqqında:**

Sİ-nin əsas kəmiyyət vahidləri;

Sİ-nin törəmə vahidləri;

Xüsusi adlara və işarələrə malik Sİ-nin törəmə vahidləri.

**2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sahə üzrə qərar və sərəncamları:**

Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması;

Elektron qaimə-fakturaların tətbiqi.

**3. Neftqazçıxarma sənayesində təhlükəsizlik qaydaları.**

Polad kanatlar;

Anbarlara olan tələblər;

Təhlükəli və zərərli maddələrlə əlaqəli işlər;

Hündürlükdə aparılan işlər;

Yükləmə-boşaltma işləri və yüklərin nəqli;

Yüklərin əllə yüklənməsi və boşaldılması, ağır yüklərin əl arabası ilə daşınması;

Uzunölçülü yüklərin yüklənməsi, boşaldılması və nəqli.

**4. BCH 212-85 Əsas tikinti materiallarının anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər.**

# ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.06.2000-ci il tarixli Əmr №723

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 14.07.2000-ci il tarixli Əmr №1-115

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli qərarı.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.04.1998-ci il tarixli 80 nömrəli qərarı

5. Material ehtiyatlarından istifadənin uçotunun təkmilləşdirilməsi. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2015

6. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 23.11.2009-ci il tarixli №117 nömrəli qərarı

7. QOST 14192-96 Yüklərin markalanması

8. Əmək məcəlləsi 200.1-ci maddə

9. Ölçmə və nəzarətin üsul vasitələri (dərslik)

10. ПБ 10-382-00 Kranların quruluşu və təhlükəsiz istismarı qaydaları

11. Neftqazçıxatma Sənayesində Təhlükəsizlik Qaydaları. Bakı, 2005

12. Mühasibat (maliyyə) uçotu. (Dərs vəsaiti) Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.06.2000-ci il tarixli Əmr №723. 2-ci hissə

**1. Azot və kükürd turşusunun saxlanmasında onların hansı maddələrlə təmasda olmasının qarşısı alınmalıdır?**
A) Soda məhlulu
B) Əhəng tozu
C) Təbaşir
D) Su çəlləkləri
E) Taxta, çubuq

**2. Hansı hallarda anbarda mal-material ehtiyatı azalır?**
A) Tələbatın artdığı zaman
B) Yay mövsümü zamanı
C) Mədaxil zamanı
D) Məxaric zamanı
E) Satış üçün bağlanan müqavilənin qüvvəyə mindiyi zaman

**3. Alınmış avadanlıq üçün elektron-qaimə əlavə hansı sənəd tələb olunmalıdır?**
A) Daşınma haqqında yol vərəqəsi
B) Avadanlığın texniki pasportu və sertifikatı
C) Avadanlığın istismarı üzrə təlimatı
D) Sertifikat
E) Avadanlığın keyfiyyəti üzrə sertifikat və təlimatı

**4. Anbar uçotunun qurulmasında nələr göstərilməlidir?**
A) Malların ölçü vahidi, sayı və miqdarı, çeşidi
B) Malların çeşidi, ölçü vahidi, qiyməti, miqdarı
C) Malların alınma tarixi, ölçü vahidi, sayı, çeşidi
D) Malların alınma tarixi, ölçü vahidi, qiyməti, miqdarı və siyahısı, çeşidləri
E) Malların alınma tarixi, ölçü vahidi, qiyməti, miqdarı və sayı

**5. Anbar uçotu nəyə əsasən qurulmalıdır?**
A) Mal-materialların siyahısına əsasən
B) Mal-materialların çeşidinə əsasən
C) Mal-materialların qiymətinə əsasən
D) Mal-materialların təsnifatına əsasən
E) Mal-materialların texniki xassələrinə əsasən

Nümunə